# "Keçmiş köçkünlərə deyirdim ki, onlar doğma torpaqlarına qayıdacaqlar"

**İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam edir. Aprelin 2-də Ağdam rayonunun Sarıcalı kəndinə növbəti köç karvanı yola salınıb.**

Yenidən qurulan Sarıcalı kəndinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Bu mərhələdə kəndə 28 ailə - 110 nəfər köçürülüb. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər.

**(davamı 12-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Onlar, həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildiriblər, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər. Hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən ümumilikdə, 40 min nəfərə yaxın insan yaşayır.

Sarıcalı kəndinə ilk köç Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın martın 27-də Ağdam rayonuna səfəri çərçivəsində olub. Qeyd edək ki, Azərbaycanın zəfər tarixi Prezident İlham Əliyevin qətiyyətli siyasəti və xalqımızın dəmir iradəsi ilə yazılıb. Qarabağ və Şərqi Zəngəzurun hər qarışı bu tarixin canlı şahidinə çevrilib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə səfərləri artıq ənənəvi xarakter alıb. Ölkə liderinin səfərləri Azərbaycanın gücünü, əzmini dünyaya nümayiş etdirir. Bu həm də 30 illik ədalətsizliyə son qoyulmasıdır. Dövlət başçısı hər səfərində təməlqoyma mərasimində icra edilmiş yeni layihələrin açılışında iştirak edib yurd yerlərinə qayıtmış sakinlərlə görüşür. Belə səfərlərdən biri də martın 27-də olub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunun Sarıcalı kəndinin birinci mərhələsinin açılışında iştirak edib. Kənd Birinci Qarabağ müharibəsində Ermənistan silahlı qüvvələri tərəfindən 1993-cü il iyulun 23-də işğal olunmuşdu. İşğal dövründə kənd viran qoyularaq xarabalığa çevrilmişdi, burada evlərlə yanaşı, məktəb, uşaq bağçası, səhiyyə, ticarət, iaşə obyektləri də vəhşicəsinə məhv edilmişdi. Vətən müharibəsində Ordumuzun şanlı Qələbəsindən sonra üçtərəfli Bəyanata əsasən Ağdam rayonu noyabrın 20-də bir güllə atılmadan Azərbaycana qaytarılıb. Sarıcalı kəndi işğaldan azad edildikdən sonra burada azərbaycanlılara aid kütləvi məzarlıq aşkarlanıb. İşğaldan əvvəl kənddə 239 ailə, ümumilikdə 1024 nəfər əhali yaşayıb. Ağdam şəhərinin mərkəzindən 6 kilometr məsafədə yerləşən bu kəndin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Yeni Sarıcalı kəndi 1873 nəfər (425 ailə) əhali üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 123 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub. Burada əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılır, təhsil, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr, klub-icma və mədəniyyət mərkəzləri tikilir, sosial məsələlər öz həllini tapır. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub. Birinci mərhələ üzrə buraya 895 nəfərin (203 ailə) köçürülməsi nəzərdə tutulur. Artıq 203 fərdi ev inşa olunub. Evlər iki, üç, dörd və beşotaqlıdır. Məskunlaşdırılacaq əhalinin gələcək sayı nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 54 hektar torpaq sahəsi ayrılıb.

Dövlət başçısı və birinci xanım kəndə köçən ilk sakinlərlə görüşüb və onlara evlərin açarlarını təqdim ediblər. Ramazan bayramı və Sarıcalı kəndinin bərpası münasibətilə sarıcalılıları təbrik edən Prezident İlham Əliyev bu əlamətdar hadisəni ikiqat bayram adlandırıb. Bildirib ki, bu bayram ərəfəsində kəndi istifadəyə vermək, keçmiş köçkünlərin sərəncamına vermək xüsusi hadisədir. Dövlət başçısı xatırladıb ki, işğal dövründə keçmiş köçkünlərlə çoxsaylı görüşləri zamanı onlara müvəqqəti yaşayış evlərini təqdim edərkən deyib ki, torpaqlar azad olunandan sonra daha da gözəl şərait yaradılacaq və onlar doğma torpaqlara qayıdacaq. 2022-ci ildən etibarən Böyük Qayıdış proqramına uyğun olaraq Qarabağ və Şərqi Zəngəzurun müxtəlif guşələrinə köç karvanları üz tutub. Artıq Sarıcalı 13-cü yaşayış məntəqəsidir ki, bura köçkünlər qayıdıblar. Bu il ərzində Ağdamın Kəngərli, Xıdırlı kəndlərinə də qayıdış gözlənilir.

Qeyd edək ki, Ağdam erməni vandalizminə ən çox məruz qalan rayonlarımızdan biridir. Hazırda bu ərazi demək olar ki, sıfırdan inşa edilir. Ağdam rayonu işğal dövründə ermənilər tərəfindən tamamilə dağıdılıb və təsadüfi deyil ki, "Qafqazın Xirosiması" adlandırılıb. Hazırda Ağdamda genişmiqyaslı bərpa və quruculuq aparılır. Şəhərin Baş Planına uyğun olaraq yollar, evlər, məktəblər, sənaye parkları, xəstəxanalar və digər sosial obyektlər tikilir. Ağdam Sənaye Parkı və digər strateji layihələr bu şəhəri Qarabağın əsas inkişaf mərkəzlərindən birinə çevirməyə hesablanıb. İlk növbədə, infrastruktur layihələrin icrasına başlanılıb. Ağdam-Bərdə yolu yenidən qurularaq istifadəyə verilib, Ağdam-Xankəndi yolunun tikintisi isə sürətlə davam etdirilir. Rayonun nəqliyyat əlaqələrini gücləndirmək məqsədilə dəmir yolu xətti çəkilir və bu il istifadəyə veriləcək. Beləliklə, Ağdama dəmir yolu ilə rahat gediş-gəliş mümkün olacaq. Həmçinin şəhərdə müasir vağzal kompleksi inşa edilir. Tarixi abidələrin bərpasına da xüsusi diqqət ayrılıb. İşğal illərində düşmən tərəfindən dağıdılan Ağdam məscidi tam bərpa edilib. Bununla yanaşı, Muğam Mərkəzinin tikintisi davam edir. Azərbaycan xanlığının görkəmli sərkərdələri və şairlərinin uyuduğu "İmarət" Kompleksi əsaslı şəkildə yenidən qurulub. Xurşidbanu Natəvanın dağıdılmış məzarı bərpa olunub, ermənilər tərəfindən məhv edilən abidəsinin eynisi yenidən ucaldılıb.

**Musa BAĞIRLI,**
**"Respublika".**